# Qloballaşma

## şəraitində milli mədəniyyət və milli təhlükəsizliyin təminatı problemləri

**Qloballaşma problemini bir çoxları sosiomədəni həyatın özünü tənzimləyən sistemə çevrilməsi sistemi kimi göstərərək, bu prosesin bəşəriyyətin faydasına baş verdiyini qeyd edirlər. Cəmiyyət olduqca qaçılmaz olan bu prosesin bəşəriyyət üçün təhlükəli hal ala biləcək prosesə çevrilməsinin qarşısını almağa çalışır.**

Bu gün qloballaşma XX əsrə bir çağırış kimi özünü müxtəlif təzahür formalarında göstərməkdədir. Əsasən də mədəniyyət sahəsində qloballaşmanın humanitar inqilab etməsini gözləmək olar. Bu inqilabın inkişafının insanların həyatında dəyişiklik yaratmasından əlavə, onların cəmiyyətə, təbiətə olan münasibətinin dəyişməsini proqnozlaşdırmaq olar. Cəmiyyətin qloballaşmasının nəticəsində ruhi mədəniyyət bir sıra dəyişikliklərə uğrayacaq ki, bu da öz növbəsində ölkəmizdə də informasiya təhlükəsizliyi problemini ön plana çıxaracaq.

Bu gün beynəlxalq konfrans və yığıncaqlarda ön planda iqtisadiyyat və siyasət, arxa planda isə mədəniyyət müzakirə olunur. Mədəniyyət anlayışına elm, təhsil, din, insanların və dövlətin əxlaq və davranış normaları daxil edilməlidir. Azərbaycan mədəniyyətinin gələcəyi bu gün ölkə rəhbərliyindən deyil, bilavasitə xalqın özündən asılıdır. Məhz mədəniyyət kütləni xalqa çevirdiyindən belə nəticəyə gəlmək olar ki, mədəniyyətin gələcək taleyini elə biz həll edirik. Bilik və informasiya hakimiyyətin əsas dayağıdır. Məşhur amerikalı analitik hesab edir ki, azacıq qüvvə sərf etməklə, bu yolla düşməni dosta çevirmək olar. Bu günün reallığı onu göstərir ki, bəşəriyyət yeni inkişafa qədəm qoyub, KİV-lərin dövlətə, cəmiyyətə və vətəndaşlara təsiri daha da effektivləşib.

Hər bir şəxsiyyətin həyat və fəaliyyətinin əsasını təşkil edən özünüdərketmə, xalqın da milli mədəniyyətinin əsasını təşkil edir. Əgər xalqın mənəvi təbiəti, fərdi xüsusiyyətləri milli mədəniyyətdə öz əksini tapıbsa və əgər onunla harmonikdirsə, bu, o deməkdir ki, artıq xalq özünü dərk edib. Belə bir mədəniyyətin yaranması hər bir xalqın həqiqi məqsədidir. Özünü dərk etmiş insan, həmçinin öz xalqının parlaq nümayəndəsinə çevrilir. Onun harmonik və dolğun həyat tərzi milli xüsusiyyətləri əks etdirməyə başlayır.

Əgər insan mədəni və yaradıcı işlə məşğuldursa, bu zaman onun yaradıcılığında şəxsiyyətin və milli xüsusiyyətlərin izlərini görmək olar. Əgər insan mədəni yaradıcılıqda fəal iştirak etmirsə və yalnız öz xalqının mədəni həyatının müəyyən sahəsində sadəcə icraçıdırsa, yenə də onun həyat və fəaliyyətində milli xüsusiyyətlər aşkar olunur. Beləliklə, individual özünüdərketmə milli mədəniyyətin orijinallığına səbəb olur və əksinə, orijinal milli mədəniyyət müəyyən xalqın bəzi nümayəndələrinin fərdi şəkildə özünü dərk etməsinə səbəb olur.

Yalnız fərdi və milli dərketmə arasında olan qarşılıqlı təsirin nəticəsində milli mədəniyyətin düzgün təbliğ olunması mümkündür. Fərdi özünüdərkə kömək məqsədilə mədəniyyət psixoloji elementləri bacardığı qədər dolğun və parlaq ifadə etməlidir ki, hər bir şəxsiyyət mədəniyyət vasitəsilə bu elementləri özündə dərk etsin. Başqa sözlə desək, yalnız tam, orijinal - etik, estetik, utilitar tələblərə cavab verən milli mədəniyyət, əsl mədəniyyət hesab oluna bilər.

Milli xarakter - millətin sosiomədəni təcrübə əsasında ənənələrinin, stereotiplərinin vəhdətinin təcəssümüdür. Millətlə mədəniyyət arasında ilkin fərqlər onların davranış, etik dəyərləri vasitəsilə araşdırılır. Bir millət üçün adi görünən hərəkət, digər millət üçün qeyri-adi bir hal kimi qarşılana bilər. Buna dair aşağıdakı misalları göstərmək olar: Məsələn, çinlilər kədərli hadisə və yaxud mərhum şəxs haqqında gülərək danışırlar. Avropada matəm rəngi qara, çində isə ağ hesab olunur. Xristianlar kilsəyə daxil olarkən başlarını açır, yəhudilər isə sinaqoqa daxil olarkən başlarını hökmən örtürlər. Bəs bütün bu müxtəlifliklərin səbəbi nədir? Alimlər belə halların insan təbiətindən, onun coğrafi şəraitindən irəli gələrək, bütün mədəniyyətlərdə eynilə 75% - dək özünü göstərməsini qeyd edirlər (10, s. 19-20).

Milli mədəniyyət insan məişətinin elə bir hissəsidir ki, burada əxlaq və davranış, şəxsiyyət və cəmiyyət, maddi həyatla dünyagörüş vahid anlamda başa düşülür. İntibah dövründən başlayaraq, ötən əsrin əvvəllərinə qədər insan tam əmin idi ki, öz daxili aləminə tam nəzarət edə bilər. Lakin Avstriyalı psixoloq Ziqmund Freyd sübut etdi ki, insanı şüursuz instinktlər hərəkət etdirərək, onu "mən"inə qarşı qoyur. Freydə görə, məhz bu mübarizə nəticəsində aqressiv və seksual hisslərinə qalib gələn insanda, mədəniyyət - etika, din, hüquq yaranır. Zaman keçdikcə özünü doğruldan bu nəzəriyyənin əsasında insan başa düşdü ki, ilk növbədə özü ən başlıca həllolunmaz problemdir.

Milli mədəniyyətlər üçün ortaq meyar seçmək olduqca çətindir. Məsələn, etibarlılıq, inam hissi aşılayan Azərbaycan mədəniyyəti digər mədəniyyətin xəyanəti ilə qarşılaşa bilər. Öz "milli meyar"ları ilə seçilən hər millət dünya sivilizasiyasına öz ənənələrini aşılayaraq, dünya sivilizasiyasının unikal tərəflərini açmağa qadirdir. Lakin beynəlxalq münasibətlərdə, mədəniyyətlərarası dialoqlarda "milli meyar" baxımından sosial problemlər ortaya çıxır. İki müxtəlif milli mədəniyyətin, həmçinin bir-birinə yaxın olan mədəniyyətlərin ortaq məxrəc tapması olduqca uzun çəkən ictimai prosesdir. Buna misal kimi, etnik cəhətdən bir-birilə bağlı olan Çinlə Tibetin, İspaniya ilə baskların və d. mədəniyyətlərini göstərmək olar.

Məşhur alman filosofu İ. Kant bəzi xalqların milli xarakterlərini aşağıdakı kimi təhlil edir. Filosofa görə, fransızlar mülayim, sadəlövh olmaları və incə zövqləri ilə, ispanlar qürurlu olmaları ilə, almanlar güclü milli ruhları və mühakimə yürütmək bacarıqları ilə seçilirlər (8, s.14). Digər alman filosofu V.Vundta görə isə milli ruhun əsasını - mif, dil və ənənə təşkil edir: "Dil özündə millətin təsəvvürlərini, mif bu təsəvvürlərdəki hissiyatı, ənənələr isə bu təsəvvürlərdən çıxan nəticəni əhatə edir" (7, s.32).

Qloballaşma prosesinin qiymətləndirilməməsi öz təsirini cəmiyyətin və xüsusən də yeni nəslin mənəvi dəyərlərində, əxlaq və davranışında göstərir. Mədəniyyətin ən incə və ali təbəqəsi mənəvi dəyərlərdir. Bu gün təəssüflər olsun ki, cəmiyyətimizdə bu təbəqə dağılmaqdadır. Bu gün real həyatda harmoniyanı bərpa etmək üçün fəlsəfi biliyin və ictimai dünyagörüşün fərdin xarici dünyasından daxili dünyasına köçürülməsi vacibdir.

Qloballaşma prosesi sivilizasiyanın inkişafında bir çox çətinliklər törədir. Burada 2 zidd tendensiyanı qeyd etmək lazımdır. Qərbin və əsasən də ABŞ-ın kulturoloji və informasional təsiri ilə bir tərəfdən informasiya asılılığının güclənməsi, digər tərəfdən isə milli mədəni ənənələrin dağıdılmasına səbəb olur. Bu tendensiya dünya birliyinin mədəni müxtəlifliyini məhdudlaşdıraraq, sistemi dağıdır. Sivilizasiyanın daxili və xarici təsirlərə qarşı müqaviməti zəifləyir. Gələcəyin problemləri iqtisadi və siyasi sahələrdə deyil, mədəni sahədə həll olunacaqdır. Bu gün məhz milli mədəniyyət millətin genetik nüvəsini təşkil edərək, dövlətimizin təhlükəsizliyinin qarantı rolunda çıxış edir. Çünki milli mədəniyyətin təsiri ilə mənəviyyat formalaşır və insanların yaşayışında stimul rolunu oynayır. Bu gün milli mədəniyyətimizdə bir-birinə zidd olan 2 baxış əsasında eqosentrik liberal ideologiyaya dayanan qərb və mənəvi dəyərlərə əsaslanan şərq sivilizasiyası formalaşmışdır. Azərbaycan Avrasiya dövləti olduğundan onun üçün şərq sivilizasiyası daha yaxındır.

XX əsrin görkəmli ictimai-siyasi xadimi, milli ideologiyamızın banisi hesab edilən M.Ə.Rəsulzadənin mədəniyyət məfhumuna özünəməxsus münasibəti olmuşdur. O, mədəniyyət anlayışına fəlsəfi baxımdan yanaşır, yəni onu ümumiləşdirmişdir. Mədəniyyət anlayışına fəlsəfi yanaşma zamanı yüksək abstraksiyaya yol verilir. Belə ki, "mədəniyyətə" cəmiyyət sözünün sinonimi, ictimai inkişafın müəyyən bir sahəsi və cəhəti kimi baxılmır. O, ictimai inkişafdan analitik olaraq ayrılmış bir hadisə kimi dərk olunur. Fəlsəfi yanaşma mədəniyyət anlayışını ontoloji məzmundan məhrum edir. Bu zaman mədəniyyət ictimai münasibətlərdə əksini tapan bir substansiyaya çevrilir. Mədəniyyət fenomeni bu zaman konkret tarixi tədqiqat predmeti olmaqdan məhrum olur. M.Ə.Rəsulzadənin fikrincə, mədəniyyət bəşəriyyətlə təbiətin toqquşması nəticəsində qazanılan qənimətdir. O, "Dirilik nədir?" məqaləsində mədəniyyət anlayışının tərifini verir: "Gördüyümüz mədəniyyət, içində bulunduğumuz ümran iştə bəşəriyyətin təbiətlə etdiyi davalardan aldığı qənimətlərdir. Hər hankı millət ki, təbiətə qarşı icra olunan müharibədə daha bacarıqlı və daha qüvvətlidir, o millət təbiətdən alınan qənimətdən də daha ziyadə istifadə edir, yalnız bununla qalmayıb dünyanın nemətlərini təqsim edərkən diri millətlər özlərinə hər kesdən ziyadə pay çıxararlar..." (2, s. 57).

Dünya kulturoloji ideyası ilə tanışlıq göstərir ki, mədəniyyət və mədəni inkişafla bağlı problemlər əsasən XIX əsrdə antropologiya, etnologiya, sosiologiya və psixologiyanın inkişafı ilə əlaqədar meydana çıxmışdır. Evolyusionist cərəyanın yaradıcısı, ibtidai icma mədəniyyətinin tədqiqatçısı ingilis etnoqraf Edvard Teylor öz tədqiqatlarını insan və sivilizasiya problemlərinin öyrənilməsinə həsr etmişdir. Teylor inkişaf etməmiş xalqların həyatını təhlil edərək, insan mədəniyyətinin inkişaf qanunauyğunluqlarını göstərməyə çalışmışdır. Cəmiyyətin sosial mədəniyyətini araşdıran etnoqraf-alimin növbəti tədqiqat obyekti cəmiyyətin sosial mədəniyyəti oldu. Mədəniyyətə vahid materiya kimi yanaşan Teylor qeyd edirdi ki, maddi mədəniyyət mənəvi mədəniyyətdən yaranmışdır. Teylorun ideyasını davam etdirən Lesli Uayt mədəniyyəti insanın intellektual imkanları ilə əlaqələndirirdi. Uayt hesab edirdi ki, cəmiyyətdə insanların davranışı və inkişaf səviyyəsi mədəniyyətlə sıx əlaqədardır. Özünün mədəni təkamül qanunu əsasında Uayt - İbn Xaldun, Kant, Morqan, Herder və digər alimlərin sosial təkamül haqqında nəzəriyyələrini birləşdirərək, öz metodologiyasını hazırladı. Bu metodologiyada Uayt 3 mədəni yanaşmanı irəli sürdü: tarixi, funksional, təkamül. Uayt hesab edirdi ki, sosiolo-

giya, psixologiya və d. elmlərin qarşılaşdığı problemlərin öhdəsindən yalnız kulturologiya gələ bilər. Mədəniyyətin sosial fenomen və noumen kimi öyrənilməsi, sosio-mədəni proseslərin gedişatının proqnozlaşdırılmasına və təhlilinə imkan verir (9).

Bu gün dövlətimizdə aparılan uğurlu siyasi və iqtisadi islahatlar, mədəniyyətin inkişafını bir növ kölgədə qoymuşdur. Halbuki, bizə məlumdur ki, milli mədəniyyət millətin genetik nüvəsini təşkil edərək, onun gələcək həyata davamlılığını müəyyən edir və qoruyucu mənəvi təbəqə kimi onun təhlükəsizliyinə zəmanət verir. Bu gün milli mədəniyyətimizə təhlükə yaradan bir neçə aşağıdakı amilləri qeyd etmək lazımdır.

Qərb dövlətləri tərəfindən mənəvi aqressiyanın nəticəsində milli mədəniyyətin deformasiyaya uğraması baş verir. Qərb həyat tərzinin, geyiminin, davranış stereotiplərinin cəmiyyətdə təbliğatı qərbləşdirmə prosesini sürətləndirir. Qərb yönümlü təbliğatın başlıca səbəbkarı isə, KİVlər və televiziyadır. Belə hal gələcəkdə sistemi pozmaqla, yetişməkdə olan gənc nəslin vətənpərvərlik hissindən məhrum olması, cəmiyyətdə mənəvi dəyərlərin itməsi və kriminogen durumun yaranması ilə nəticələnə bilər. Digər təhlükə yaradan amil kimi cəmiyyətdə təhsil, elm və mədəniyyət işçilərinin aztəminatlı təbəqələr sırasında olmaları və intellektual əməyin dəyərləndirilməməsidir. Bu sırada M. Ə. Rəsulzadənin aşağıdakı sözlərini vurğulamaq yerinə düşərdi: "Mədəniyyətin qayəsi siyasəti elmə təhkim etməkdir" (5, s. 88).

Mədəniyyət milli genetik miras kimi nəsildən - nəslə keçərək, sosial təcrübə qazanır. Milli mədəniyyətin əsasında milli ruh, milli ruhun isə əsasında dəyər və normalar dayanır. Millət öz vahidliyini dərk edir, yaddaş zəncirvari şəkildə öz keçmiş və gələcəyini bağlayır. Nəsillərin formalaşdırdığı nailiyyətlər mədəniyyətin müəyyənləşdirdiyi həyat tərzi hesab oluna bilər. Hər bir mədəniyyətin özünəxas cəhətlərindən əlavə, onun başqa mədəniyyətlərdən üstün cəhətlərini də nəzərə almaq lazımdır.

**Sadaladığım təhlükələr yeni postindustrial informasiya mərhələsinə keçid dönəmində cəmiyyətimizdə daha da sürətlənə bilər. Təkamülün mürəkkəb dövrlərində cəmiyyətin əsasını təşkil edən sosial sistem öz nizamlılığını itirir, xarici təsirlərin nəticəsində deformasiyaya uğrayır. Məhz buna görə də vahid amala xidmət edərək, cəmiyyətimizin bütün sağlam qüvvələrinin, vətənpərvərlərin birgə qüvvəsini bu işə yönəltmək lazımdır.**

**Abbas EYVAZOV,**
*ADMİU-nun kulturologiya fakültəsinin magistri*

## Ədəbiyyat

1. Aslanova R. "Qloballaşma və mədəni müxtəliflik", B. - 2004.
2. Cəfərov N. "Milli ictimai fikir tariximizdən (1914 - fevral 1917)". B. "Azərnəşr", 1993.
3. Əliyev Y. "Müasir Azərbaycan mədəniyyəti:problem və perspektivlər",2007.
4. Məmmədəliyeva S. "Qloballaşma dövrünün mədəni fəlsəfi aspektləri", B. - 2006.
5. Rahid Ulusel "Qloballaşma və türk sivilizasiyası", B. - 2005.
6. Resulzade M. E. "Milli tesanüd", Ankara, Kardeş matbaası, 1978.
7. Şükürov A. "Qloballaşma: mahiyyəti və perspektivləri", B. - 2001.
8. Вундт В. Проблемы психологии народов. В книге: Преступная толпа. М. - 1998.
9. Гнатенко П.И. Национальный характер; мифы и реальность. М. - 1981.
10. Мамедов Ф. "Культурология и задачи социально - культурного развития Азербайджана"
11. Этнографическое изучение знаковых средств культуры. М. - 1989.

## Резюме

В статье говорится о роли процессов глобализации в социально - культурной жизни общества и указываются пути решения проблем национальной безопасности. Также рассмотрены факторы создающие угрозу формированию национальной культуры. Далее рассмотрены перспективы стабильного развития Азербайджанской культуры.

## Summary

The article devoted to role of global processes in the cultural life of society and show the way for decision of national security problems. Also, considered the factors created danger for establishment of national culture. Then, considered perspectives of stabile development of Azerbaijan culture.

Təqdim etdi: ADMİU-nun kulturologiya fakültəsi
Elmi rəhbər: fəlsəfə elmləri doktoru, professor Niyazi Mehdi